

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 222 (23.384)

26 noyabr 2019-cu il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Naxçıvanda yeni meyvə bağı salınıb



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***“İnsanın yaxşı həyatını təmin edən amillərdən biri də ekoloji vəziyyət, sağlamlıq və təbiətin, ətraf mühitin qorunmasıdır”.***

Naxçıvan Muxtar Respublikasında ekologiyanın zənginləşdirilməsi diqqətdə saxlanılır. Aparılan tədbirlərin nəticəsidir ki, muxtar respublika ərazisinin 20 faizə yaxını yaşıllıqlardan ibarətdir. Yaşıllaşdırma tədbirləri payız aylarında da davam etdirilir, yeni meyvə bağları salınır.

Noyabrın 23-də muxtar respublikada payız mövsümünün növbəti iməciliyi keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin, Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin kollektivləri Uzunoba gölünün ətrafında keçirilən iməcilikdə iştirak etmişlər. İməcilik iştirakçıları 2 hektar ərazidə 1500 müxtəlif meyvə və üzüm tingləri əkmiş, aqrotexniki qulluq göstərilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov iməcilikdə iştirak etmiş, meyvə tingləri əkmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili II İstanbul Beynəlxalq Ombudsmanlar Konfransında iştirak edib



***18-19 noyabr 2019-cu il tarixlərdə Türkiyənin İstanbul şəhərində “Layiqli idarəetmə prinsipləri və Ombudsman” mövzusunda II İstanbul Beynəlxalq Ombudsmanlar Konfransı keçirilmişdir.***

Afrika, Yaxın Şərq və Avropanın 60 ölkəsindən, bir sıra beynəlxalq təşkilatlardan 200-ə yaxın Ombudsman və insan hüquqları müdafiəçilərinin təmsil olunduğu beynəlxalq konfransda Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsmanı) Ülkər Bayramova da iştirak etmişdir.

Açılış mərasimində Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış edərək dünyada sülhün, ədalətin bərqərar olunmasında, həmçinin insan hüquqlarının müdafiəsində və layiqli idarəetmənin təbliğində Ombudsman institutlarının əhəmiyyətini vurğulamışdır.

2 gün davam edən konfransın 4 plenar iclası keçirilmişdir. Plenar iclaslarda layiqli idarəetmə prinsiplərinin müəyyən edilməsi, layiqli idarəetmənin tətbiqində Ombudsmanın rolu, idarəetmədə bərabərlik və ədalət prinsipinin tətbiqinin əhəmiyyəti, şəffaflıq, hesabatlılıq, məlumat hüququ və şəxsi məlumatların qorunması, ombudsmanların bu prinsiplərə münasibətdə gələcək rolu, məsuliyyətlərinin bölüşdürülməsi məsələləri üzrə müxtəlif dövlətlərin ombudsmanlarının və hüquq müdafiəçilərinin məruzələri dinlənilmiş, mövzular ətrafında geniş müzakirələr aparılmışdır. Həmçinin konfransda insan hüquqlarının müasir problemləri, insan hüquqlarının qorunmasının qanunvericiliyə uyğunluğu, ayrı-seçkiliyin qarşısının alınması, mütənasiblik, bərabərlik, qərəzsizlik, dürüstlük, nəzakət, şəffaflıq, əldə edilən hüquqlara və məlumatlara hörmət hüququ, müdafiə hüququ, fərdi məlumatların qorunması və digər məsələlər də geniş müzakirə obyektinə çevrilmişdir.

Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili Ülkər Bayramova İslam Ölkələri Əməkdaşlıq Təşkilatı nəzdində yaradılan və 33 ölkənin üzv olduğu İslam Ölkələri Ombudsmanlar Assosiasiyasının Baş Məclisinin İdarə Heyətinin iclasında, həmçinin 22 ölkədən 38 üzvü olan Asiya Ombudsmanlar Assosiasiyasının İdarə Heyətinin iclasında iştirak edərək muxtar respublikada Ombudsman institutunun fəaliyyəti, o cümlədən insan hüquqlarının səmərəli müdafiəsi sahəsində qazanılan müsbət təcrübələr haqqında danışmış, muxtar respublikanın ölkəmizin siyasi sistemindəki rolu, muxtariyyətinin spesifik əlamətləri, insan hüquq və azadlıqları ilə bağlı görülən işlər barəsində tədbir iştirakçılarını məlumatlandırmış, təcrübə mübadiləsi aparılmışdır.

***Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) mətbuat xidməti***

## *“Səyyar dövlət qulluğu xidməti könüllüyü”* startap layihəsinin rayonlarda keçirilməsi davam etdirilir



“Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında” 2019-cu il 3 aprel tarixli Sərəncamın icrasının təmin edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın əməkdaşları və könüllülərdən ibarət səyyar xidmət qrupu dünən Şərur Rayon Təhsil Şöbəsində olub, xidmət zamanı müəllimlərin dövlət ümumi təhsil müəssisələrinə işə qəbulu, eləcə də ədliyyə orqanlarında vakant vəzifələrin tutulması üçün elan olunmuş müsabiqələrdə vətəndaşların iştirakını təmin etmək məqsədilə qeydiyyatdan keçməkdə çətinlik çəkənlərə operativ köməklik göstərilib.

Könüllülər təlimlər zamanı əldə etdikləri bilikləri xidmətdə tətbiq edərək komissiyanın əməkdaşının müşayiəti ilə vətəndaşlardan müsabiqəyə iştirak etmək üçün lazımi sənədləri qəbul edib, həmin sənədlərin düzgünlüyünü yoxlayaraq onların surətlərini şəxsi kabinetə yükləyib və qeydiyyatdan keçirməklə müsabiqələrdə iştiraklarını təsdiq ediblər.

Gün ərzində 11 nəfərə səyyar elektron xidmət göstərilib.

Onu da qeyd edək ki, bu günədək rayonlarda həyata keçirilən səyyar xidmət layihələrində sənəd qəbulu zamanı qarşıya çıxan çətinliklərin aradan qaldırılması, vaxt və maliyyə itkisinin qarşısının alınması məqsədilə rayonlarda yaşayan, elektron xidmətlərdən istifadə etməkdə çətinlik çəkən, Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın inzibati binasına gələ bilməyən 80 vətəndaşa səyyar elektron xidmət göstərilib.

Bu istiqamətdə keçirilən tədbirlərin davamı olaraq noyabrın 27-də Şahbuz, noyabrın 29-da isə Ordubad Rayon Təhsil şöbələrində səyyar xidmət göstəriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

## Oktyabr ayında 645 daşınmaz əmlak obyekti qeydiyyata alınıb

*Muxtar respublikada daşınmaz əmlakın kadastrı və reyestrinin təkmilləşdirilməsi sahəsində ardıcıl fəaliyyətin təmin edilməsi, torpaqlardan istifadəyə və onların mühafizəsinə dövlət nəzarətinin gücləndirilməsi 2019-cu ilin oktyabr ayında da Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi tərəfindən diqqətdə saxlanılmışdır.*



Ötən ay 30 ailə təsərrüfatına məxsus qeyri-yaşayış obyekti, həyətyanı təsərrüfat binaları və təsərrüfat fəaliyyəti ilə əlaqədar icarəyə götürülmüş torpaq sahələri üzərində hüquqlar dövlət qeydiyyatına alınmışdır. Şahbuz rayonunda planaalma işləri davam etdirilmiş, 1214 daşınmaz əmlak obyekti plana alınmışdır. Rayonun Şahbuzkənd, Daylaqlı və Sələsüz bələdiyyələrinin sərhəd xəritələrinə dair müvafiq yerquruluşu sənədləri elektron variantda hazırlanmış və torpaqların növləri üzrə uçotu aparılmışdır.

Babək rayonunun Zeynəddin kəndində torpaqlardan səmərəli istifadə və onların mühafizəsinə dair monitorinqlər zamanı aşkar edilmiş qanun pozuntularının aradan qaldırılması istiqamətində işlər davam etdirilmiş, Sirab kəndində monitorinqlərə başlanılmışdır. Rayonun Kərimbəyli, Kültəpə, Qahab, Sirab və Zeynəddin bələdiyyələrinin torpaqların qida maddələri ilə təminolunma kartoqramları hazırlanaraq aidiyyəti üzrə təqdim edilmişdir.

Naxçıvan şəhərində, Şərur, Babək, Şahbuz və Kəngərli rayonlarında “Daşınmaz əmlaka mülkiyyət hüququnun yaranmasının əsasları və bələdiyyə torpaqlarından təyinatı üzrə istifadə edilməsi” mövzusunda seminarlar, Naxçıvan Dövlət Universitetinin komitənin hamiliyinə verilmiş tələbələri ilə görüş keçirilmişdir.

Oktyabr ayında 645 daşınmaz əmlak obyekti qeydiyyata alınmış, 386 texniki sənəd hazırlanmış, yeni yaranmış 82 daşınmaz əmlak obyektinə ünvan verilmiş, 93 torpaq sahəsinin plan-ölçüsü dövlət kadastr kitablarında qeydiyyata alınmışdır. Komitənin səyyar xidmət qrupu tərəfindən muxtar respublika üzrə 8 yaşayış məntəqəsində 64 vətəndaşın müraciətinə baxılmış, 64 vətəndaşa elektron xidmətlər göstərilmişdir.

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Ötən ay yerli hava xətti ilə 19 min 623 sərnişin daşınıb



Naxçıvan Beynəlxalq Hava Limanında uçuşların təhlükəsiz təşkili məqsədilə mütəmadi tədbirlər görülür. Oktyabr ayında da bu məsələ diqqət mərkəzində saxlanılmış, əhaliyə nümunəvi xidmət göstərilmişdir.

Ötən dövrdə hava gəmilərinə müntəzəm texniki qulluq edilmiş, elektrik və işıq təchizatı sahəsində cari təmir işləri aparılmış, dizel generatorlarına, uçuş-enmə zolağında işıq, siqnal sistemlərinə texniki xidmət göstərilmiş, güc transformatorlarının çıxış cərəyanları yoxlanılmışdır. Hava limanının bazasında olan maşın-mexanizmlərin normal istismarına da diqqət göstərilmiş, xidməti avtomobillərin və digər texnikaların təmirə ehtiyacı olan hissələri yenisi ilə əvəz edilmişdir.

Payız-qış mövsümündə hərəkətin təhlükəsizliyinin təmin olunması məqsədilə bütün zəruri tədbirlər yerinə yetirilmiş, təhlükəsizliyin təmin olunması üçün texniki işçilərlə məşğələ keçirilmiş və normativlər qəbul edilmişdir. Sərnişinlərin aeroporta daxil olduğu, təyyarəyə buraxılış və yük bölmələrində yerləşən monitorlara, metalaxtaranlara baxış keçirilmiş, postlarda yoxlama aparılmışdır. Aviasiya təhlükəsizliyinin təmin olunması məqsədilə təhlükəsizlik personalı tərəfindən qadağan olunmuş əşyalar aşkar edilmiş və aidiyyəti üzrə təhvil verilmişdir.

Ötən ay bütün reyslər vaxtında qarşılanmış və yola salınmış, yerli hava xətti ilə 19 min 623, beynəlxalq hava xətti ilə Naxçıvan-Moskva reysi üzrə 281, Naxçıvan-İstanbul reysi ilə 413 sərnişin daşınmışdır.

***Naxçıvan Beynəlxalq Hava Limanı***

Müasirləşən kəndlərimiz

# Yeniləşən yaşayış məntəqələrimizin xəritəsi genişlənir

## *Bu sıraya Muğanlı və Alışar kəndləri də daxil olub*

***Son illərdə muxtar respublikamızda ilin bu fəsli bir neçə təmtəraqlı, el bayramına çevrilən hadisələrlə xarakterizə olunur. Onlardan biri də diyarımızın ayrı-ayrı yaşayış məntəqələrini müasirliyə qovuşduran yeni obyektlərin istifadəyə verilməsidir. Muxtar respublikada əmin-amanlığın, sosial-iqtisadi inkişafın təzahürü olan belə tədbirlər hər bir naxçıvanlını ürəkdən sevindirir, qədim diyarımıza xarici ölkələrdən, ölkəmizin digər bölgələrindən gələn qonaqlarda yüksək və zəngin təəssüratlar yaradır. Söhbət etdiyimiz belə insanlar muxtar respublikanın blokada şəraitində olduğuna inanmır, belə bir kiçik inzibati ərazidə yüksəliş və tərəqqinin sürətinə təəccüblərini gizlətmirlər. Ancaq bu, günün reallığıdır və naxçıvanlılar xoşbəxtdirlər ki, o reallığı yaşayırlar, ən kiçik və ən ucqar dağ kəndində də, rayon mərkəzlərində də. Bu sevinc ötən ay Şərur rayonunun Muğanlı kəndində də yaşanıb.***



Yol çəkdirmək ən xeyirxah və savab iş sayılır. Muxtar respublikada bu istiqamətdə görülən işlər diyarımızın ayrılmaz tərkib hissəsinə çevrilmiş tikinti-quruculuq tədbirləri sırasında davamlı xarakter alıb. Oktyabrın 21-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov 11,5 kilometrlik Muğanlı-Alışar yolunun açılışını edib. Müasir standartlara və texniki göstəricilərə tam cavab verən yolun yatağı genişləndirilib, asfalt və 773 metr beton kanal salınıb, su keçidləri qoyulub.

Kənddə rabitə, elektrik, qaz, su, hava rabitə xətləri yenilənib, fiber-optik, yeraltı kabel çəkilib, 2 transformator quraşdırılıb, qaz xətlərinin ehtiyac duyulan hissələrində yerdəyişmə tədbirləri həyata keçirilib, suvarma arxları, kollektorlar təmizlənib, qapalı drenaj xətti istifadəyə verilib. Yaşayış məntəqəsinə müasirlik gətirən tam orta məktəbin, kənd və xidmət mərkəzlərinin, həkim ambulatoriyasının açılış tədbirlərində dövlətimizin Muğanlı sakinlərinə göstərdiyi qayğıdan danışılıb. Ali Məclisin Sədri Muğanlı kənd tam orta məktəbinin yeni binasının istifadəyə verilməsi münasibətilə kollektivi təbrik edərək deyib: ***“Muğanlı kənd tam orta məktəbinin yaxşı təhsil ənənələri vardır. Məktəb öz nailiyyətləri ilə daim seçilib. Ötən tədris ilindəki nailiyyətləri onu deməyə əsas verir ki, bu gün də məktəbdə ənənələr yaşadılır, nizam-intizama, tədrisin səviyyəsinə xüsusi diqqət yetirilir”.***

Qeyd edək ki, yeni təhsil ocağının binası 224 şagird yerlikdir. Burada 3-ü elektron lövhəli olmaqla, 14 sinif otağı, kimya, biologiya və fizika laboratoriyaları, hərbi kabinə, şahmat, kompüter, müəllimlər otaqları və idman zalı müəllim və şagirdlərin ixtiyarına verilib. Bütün otaqlar aidiyyəti zəruri tədris avadanlıqları ilə təchiz edilib. Zəngin kitab fonduna malik olan kitabxanada ulu öndər Heydər Əliyevin həyatı və siyasi fəaliyyətindən, eləcə də oxunması zəruri olan kitablardan ibarət guşələr yaradılıb. Bu şəraitdən razılıqlarını bildirən müəllimlər ilk gündən qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsinə çalışırlar.

Onu da deyək ki, fəaliyyət göstərdiyi müddətdə bu məktəb xeyli uğura imza atıb, onun şöhrəti muxtar respublikanın sərhədlərini aşaraq ölkəmizə yayılıb. Məktəbin müəllimləri ilə söhbətdə bu barədə geniş bəhs olundu. Təhsil ocağına 34 il rəhbərlik etmiş, hazırda təqaüddə olan Azərbaycan Respublikasının Əməkdar müəllimi İsa Hüseynov bildirdi ki, məktəb yetişdirdiyi məzunlarının ali məktəblərə qəbulunun nəticələrinə görə ölkənin ən qabaqcıl təhsil ocaqları sırasındadır. Bu tədris ocağı 2010-cu ildə “İlin 50 ən yaxşı məktəbi” müsabiqəsinin qalibi olub. Məktəbin kollektivi haqlı olaraq qürur hissi keçirir ki, tədris ocağının məzunlarının 20-dən çoxu qəbul imtahanlarında 500-dən yuxarı bal toplayıb. Bir o qədər şagird ölkə üzrə keçirilən fənn olimpiadalarında ilk yerlərə sahib olublar. Məzunlar içərisində onlarla fəlsəfə və elmlər doktoru, sahibkar, dövlət qulluqçusu və hüquq-mühafizə orqanlarının yüksəkrütbəli əməkdaşı var. Onlar tez-tez məktəbə gəlir, müəllimləri ilə görüşür, kollektivin qazandığı uğurların sevincini yaşayırlar. 416-cı Taqanroq diviziyasının komandiri, polkovnik Mehdi Mahmudovun adını daşıyan məktəbdə vətənpərvər gəncliyin yetişdirilməsi diqqət mərkəzində saxlanılır. Söhbət zamanı Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi Baba Babayev açılış mərasimindən sonra kollektivlə görüşdə Ali Məclis Sədrinin verdiyi tövsiyəni xatırlatdı: ***“Təhsil ölkənin gələcəyidir. Hər bir ölkənin gələcəyini görmək üçünsə, ilk növbədə, onun gəncliyinə nəzər salmaq lazımdır. Çünki vətənpərvər və təhsilli gənclik ölkənin etibarlı gələcəyidir. Ölkəmizdə təhsilə göstərilən qayğının əsas məqsədi də gələcəyimiz üçün təhsilli və vətənpərvər gənclər hazırlamaqdan ibarətdir”.***

Yeni kənd mərkəzi və həkim ambulatoriyası məktəb binası ilə bir sırada inşa olunub. Kəndə şəhər görkəmi gətirən bu binada Muğanlının bütün dövlət qurumları və özünüidarəetmə təşkilatı fəaliyyət göstərir. Daha dəqiq desək, binada inzibati ərazi dairəsi üzrə nümayəndəlik, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, bələdiyyə, rabitə evi, polis sahə və baytarlıq məntəqələri, klub, kitabxana və zal yerləşir. Baytarlıq mən-





təqəsi soyuducu və dərmanlarla təmin olunub. Buradakı rabitə evində poçtun fəaliyyəti üçün bütün tədbirlər görülüb, eyni zamanda 192 nömrə tutumlu yeni nəsil ATS quraşdırılıb.

Baş həkim, stomatoloq üçün kabinə, fizioterapiya kabinəsi, doğuş, manipulyasiya, peyvənd, qeydiyyat və aptekdən ibarət həkim ambulatoriyasının stomatoloji qurğu, doğuş masası, quruducu şkaf, peyvənd və təcili yardım çantaları, mikroskop, sentrifuqa, hemometr, qlükometr, soyuducu və digər tibbi avadanlıqlar, fizioterapiya kabinəsinin elektroterapiya və ultrasəslə, eləcə də ultrayüksəktezlikli cərəyanla müalicə aparatları, parafinəritmə qazanı və solyuks lampası ilə təchiz edilməsi ağxalatlı peşə sahiblərinin normal fəaliyyətinə imkan verib.

6 nəfərin işlə təmin olunduğu kənd mərkəzində bərbərxana, gözəllik salonu, ət satışı yeri, ərzaq, sənaye və təsərrüfat malları mağazaları, dərzi və 2 anbar fəaliyyət göstərir. Burada ailə təsərrüfatları tərəfindən istehsal olunmuş məhsulların satışa çıxarılması diqqət mərkəzində saxlanılıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov sakinlərlə görüşündə deyib: ***“Bu gün Muğanlı kəndi ölkəmizin abad yaşayış məntəqələri sırasına daxil oldu. İstər təsərrüfat, istərsə də təhsil sahəsində kəndin yaxşı ənənələri vardır. Bu ənənələr bu gün də davam etdirilir. Kənddə məktəb binasının, kənd və xidmət mərkəzlərinin, həkim ambulatoriyasının, yolun istifadəyə verilməsi, poçtun fəaliyyətə başlaması kəndin inkişafına və sakinlərin rahat yaşayışına xidmət edir. Bütün bunlar ümummilli liderimiz Heydər Əliyevin siyasi xəttinin ölkə Prezidenti tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir. Muğanlı kəndinin bərəkətli torpaqları vardır. Sakinlər bu imkanlardan istifadə edərək torpaqları əkməli, təsərrüfatları genişləndirməli, muxtar respublikanın inkişafına öz töhfələrini verməlidirlər. Kənddə tikilib qurulanlar qorunub saxlanılmalı, abadlıq işləri davam etdirilməlidir”.***

Muğanlının torpağa bağlı zəhmət adamları Ali Məclis Sədrinin bu tövsiyəsini yaşam tərzi hesab edir, onlara göstərilən qayğıdan ruhlanaraq kənd təsərrüfatının inkişafında fəallıq göstərirlər. Sakinlərlə söhbətdə bildirdilər ki, onlar yaxın günlərdə muxtar respublikada təşkil olunmuş “Ailə təsərrüfatları məhsulları” festivalında iştirak ediblər.

* * *

Rayonda həyata keçirilən quruculuq tədbirlərindən Alışar kəndinə də pay düşüb, yaşayış məntəqəsində kənd və xidmət mərkəzləri inşa edilib, kənd yolu yenidən qurulub. Məlumat üçün bildirək ki, 2004-cü ildə burada 413 şagird yerlik məktəb binası inşa olunub. Bu qayğı təhsildə yeni uğurlar qazanılmasını təmin edib. Bunun ifadəsidir ki, ötən il məktəbi bitirmiş 8 məzunun 7-si ali məktəb tələbəsi adına layiq görülüb. Bu yaşayış məntəqəsinə davamlı qayğının ifadəsi olan yeni obyektlər də alışarlılar tərəfindən yüksək dəyərləndirilib.

Kənd mərkəzində rabitə evi, polis sahə və baytarlıq məntəqələri, feldşer-mama məntəqəsi, 4400 kitab fondu olan kitabxana, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, statistika işçisi üçün otaq və zal istifadəyə verilib. Rabitə evində yaradılmış poçt bölməsi əhaliyə nümunəvi xidmət göstərir. 384 nömrə tutumlu yeni ATS quraşdırılmış Alışarda 67 internet istifadəçisi vardır.

4 otaq ayrılmış feldşer-mama məntəqəsi ginekoloji müayinə masası, mama müayinə alət dəsti, ilkin tibbi yardım və peyvənd çantaları, qlükometr, soyuducu və digər tibbi ləvazimatlarla təmin olunub. Mərkəzdə bərbərxana, gözəllik salonu, ət satışı yeri, ərzaq, sənaye və təsərrüfat malları mağazaları, dərzi və 2 anbar fəaliyyət göstərir.

Alışar kəndində digər abadlıq işləri də həyata keçirilib, 450 metr fiber-optik, 8 min metrdən artıq rabitə, 3050 metr hava elektrik xətti çəkilib, 5886 metrlik qaz xəttində təmir-bərpa işləri aparılıb, 4800 metr uzunluğunda suvarma arxı və 9800 metr kollektor lildən təmizlənib. Bütün bunlar alışarlıların qurub-yaratmaq əzmini daha da yüksəldib.

***Bu gün öz inkişaf tempi ilə nümunə gücündə olan muxtar respublikada müasirləşən yaşayış məntəqələrinin sayı artdıqca, belə kəndlərin xəritəsi genişləndikcə dönüb geriyə baxmamaq olmur. Doğma Naxçıvanımızın 20-25 il əvvəlki mənzərəsini xatırlayanlar təsdiq edər ki, o dövrlə bu günü, ümumiyyətlə, müqayisə belə, etmək olmaz. Həyatımızın hər bir sahəsindəki möhtəşəm yeniliklər müasir Naxçıvanın yaradılmasına gətirib çıxarıb. İnsanlarımız indiki Naxçıvanda yaşamağın qüruru ilə öz doğma yurd yerinin bu gününün qədrini bilir, qurulub-yaradılanların qorunmasını, sabaha ərməğan edilməsini özlərinin vətəndaşlıq borcu sayırlar.***

**Muxtar MƏMMƏDOV**

İstehsal müəssisələri

# *“Ləzzət Qida Sənaye”* Məhdud Məsuliyyətli Cəmiyyətinin ixrac imkanları artmaqdadır

Ölkəmizdə qeyri-neft sektorunun inkişaf etdirilməsi və “Made in Azerbaijan” brendi altında ixracın artırılması strategiyası üzrə qarşıya qoyulmuş vəzifələr muxtar respublikamızda da uğurla həyata keçirilməkdədir. İqtisadiyyatın şaxələndirilməsi, yeni istehsal sahələrinin yaradılması və bu sahələrə yerli kadrların cəlb olunması nəticəsində bir zamanlar tamamən idxaldan asılı olmuş Naxçıvan Muxtar Respublikası bu gün ixrac potensialına malikdir. Bununla da diyarımız ölkənin valyuta ehtiyatlarının artırılmasına öz mühüm töhfəsini verir.

1995-ci ildə əsası qoyulmuş “Ləzzət Qida Sənaye” Məhdud Məsuliyyətli Cəmiyyətində yeni keyfiyyətli məhsulların istehsalı və idxalı, xarici bazarlarda qazandığı etibarlı partnyorlar sahəsində fəaliyyətini genişləndirməkdədir.

Şirkət yarandığı tarixdən fəaliyyətini iki əsas istiqamətdə – gündəlik




tələbat mallarının topdan satışı və qida məhsullarının istehsalı sahəsində qurub. Muxtar respublikamızda sahibkarlığın inkişafına göstərilən dəstəkdən bəhrələnən müəssisə yarandığı gündən indiyədək böyük bir inkişaf yolu keçib. Hazırda şirkət Türkiyə, Rusiya, ABŞ, Ukrayna, Çin, Birləşmiş Ərəb Əmirlikləri, Hindistan, İran və digər ölkələrdən olan 50-dən artıq istehsalçı firma ilə əməkdaşlıq edir. Şirkət uğurlu distribüterlik fəaliyyəti həyata keçirməklə yanaşı, qənd istehsalı, çərəz, dənli məhsulların emalı, həmçinin qablaşdırılması sahəsində də istehlakçıların maraq və tələblərini müvəffəqiyyətlə təmin edir. Bundan əlavə, cəmiyyət tərəfindən 2010-cu ildə əsası qoyulan “Ləzzət Biskvit və Şokolad Fabriki” MMC-də Avropa standartlarına cavab verən vafli, kek, biskvit və digər qənnadı məmulatları da istehsal olunur.

Tanınmış xarici firmalarla ticarət əlaqələrini genişləndirən, o cümlədən muxtar respublikada və Azərbaycanın bütün bölgələrində müştəriləri yüksəkkeyfiyyətli məhsullarla təmin edən müəssisədə Avropa standartlarına uyğun avadanlıqlar quraşdırılmış və yüksək səviyyəli iş şəraiti yaradılmışdır.

Əldə olunmuş təcrübə, keyfiyyətə nəzarət ixracın həcminin artırılmasına imkan yaradıb. Belə ki, müəssisədə cari ilin iyul-oktyabr aylarında ixrac olunmuş məhsulun ümumi dəyəri 241 min ABŞ dolları həcminə yaxın olub. Əsasən, Gürcüstan və İraqa ixrac olunan 20-yə yaxın çeşiddəki vafli məmulatları bu ölkələrdə həvəslə alınır. Gələcəkdə əlavə olaraq 10-a yaxın çeşiddə vafli və peçenye məmulatını da ixrac etməyi planlaşdıran şirkət bu istiqamətdə tanıtım və marketinq tədbirlərinə də geniş yer verir. Belə ki, cari ilin oktyabr ayında Almaniyanın Köln şəhərində keçirilmiş “Anuga-2019” ərzaq sərgisində vahid ölkə stendində iştirak edən müəssisənin məhsulları böyük maraqla qarşılanıb. Qarşıdakı dövrlərdə Dubaydakı “Yummex Middle East” və Moskva şəhərindəki “ProdExpo Moscow” beynəlxalq qida məhsulları sərgilərinə də dəvət almış “Ləzzət Biskvit və Şokolad Fabriki” MMC-də bunun üçün ciddi hazırlıq işləri aparılır. Onlar inanırlar ki, yalnız əla keyfiyyət, münasib qiymət və ləzzətli dada malik olan məhsullarla bugünkü istehlakçının tələbatını ödəməklə, rəqabətqabiliyyətli fəaliyyəti təmin edə bilərlər. Buna nail olmaq üçün isə indi bütün imkanlar vardır.

**Əli CABBAROV**

## Müasir çağırışların fəal iştirakçısı olan, innovativ düşüncəli gənclər yetişir

*Bu gün informasiya və kommunikasiya texnologiyalarının inkişafı müasir çağırışların fəal iştirakçısı olan, innovativ düşüncəli gənclərin formalaşmasını tələb edir. Məhz bu səbəbdən muxtar respublikamızda gənc sahibkarların inkişafına diqqət göstərilir, gənclərin intellektual səviyyəsinin artırılması, onların elmə, təhsilə, innovativ düşüncəyə, texnologiyalara və rəqabətədavamlı biliklərə yiyələnməsinə xüsusi önəm verilir. Onlar informasiya texnologiyalarından, internetdən yalnız əyləncə, bilik almaq üçün yox, həmçinin biznes ideyalarının reallaşdırılması üçün də istifadə edirlər. Nəticədə, yeni ideyanın reallaşdırılması və ya daha əvvəldən mövcud olan hər hansı bir ideyanın təkmilləşdirilməsini tələb edən davamlı, dayanıqlı, inkişafa meyilli təşəbbüslər – startaplar ortaya çıxır. Muxtar respublikamızda "Startap Naxçıvan" hərəkatını genişləndirmək üçün ali və orta ixtisas təhsili müəssisələrində təlimlər, müsabiqələr keçirilir, yeni layihələrin icrası diqqət mərkəzində saxlanılır. Bu məqsədlə istifadəyə verilən "Startap Naxçıvan" portalı da həyata keçirilən tədbirlərin davamı kimi diqqəti cəlb etdi.*



***"Startap Naxçıvan" portalı vasitəsilə gənc startapçılar öz layihələrini daha sürətli və asan təqdim edə bilirlər***

Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin şöbə rəisi, işçi qrupunun üzvü Hüseyn Əsgərli qeyd edir ki, innovativ həllərin tətbiqinin zəruri olduğu bir dövrdə "Startap Naxçıvan" hərəkatı ölkəmizdə milli startap infrastrukturunun inkişaf etməsinə dəstək verməklə yanaşı, gənc sahibkarların yetişməsi və formalaşmasında da mühüm rol oynayacaq. Həmçinin bu layihə gələcəkdə hamiliyə verilən təhsil müəssisələrinin hami təşkilatlarla birgə innovasiyaya və dayanıqlı inkişafa əsaslanan, yaradıcı düşüncəni və elmi-texniki tərəqqini əks etdirən yeni layihələr həyata keçirməsinə, muxtar respublikada İKT sektorunda investisiya mühitinin yaxşılaşdırılmasına, ən yaxşı internet və İT layihələrini üzə çıxarmağa, innovativ ideyaların uğurlu biznes sahəsinə çevrilməsinə yardım edəcəkdir.

Layihə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" 2019-cu il 3 aprel tarixli Sərəncamının icrası istiqamətində həyata keçirilən tədbirlər çərçivəsində hazırlanıb və *"startup.nakhchivan.az"* internet portalı istifadəyə verilib. Burada həm startapçılar, həm hami təşkilatlar, həm də investorlar üçün müvafiq imkanlar yaradılıb, bütün iş prosesinə mərkəzi nəzarət və idarəetmə mexanizmi qurulub. Həmçinin portalda rəsmi sənədlər, startap haqqında məlumatlar, startapçı olmaq üçün tələblər, layihələrin təqdimedilmə qaydaları və digər məlumat bölmələri vardır. Eyni zamanda qeydiyyatdan keçərək portalın aktiv istifadəçisi kimi forumların iştirakçısı olmaq, yeni layihəni təqdim etmək, məsləhət almaq, hami təşkilatların internet resurslarına keçid edib onlarla birbaşa interaktiv əlaqə yaratmaq, investor olmaq, hər hansı işin ən innovativ həlli və digər məsələlərlə bağlı imkanlar yaradılıb.

***Yeni startap layihəsi tələbələrin innovativ potensiallarının üzə çıxarılmasında mühüm rol oynayacaq***

Onlar informasiya texnologiyalarından effektiv istifadə etməklə hər hansı məhsul və ya xidmətin təqdim edilməsinə yönələn innovativ ideyalar əsasında müxtəlif sahələr üzrə hazırladıqları layihələri təklif edə biləcəklər. Əsas odur ki, bu layihələr daha əvvəl tətbiq edilməsin və təklif olunan layihə daha effektiv innovasiyalar üzərində qurulsun. Elmi-tədqiqat, araşdırmatipli layihələr "Startap Naxçıvan" çərçivəsində keçirilən müsabiqə və digər yarışmalara qəbul edilmir. Biznes layihələr bir və ya bir neçə nəfərdən ibarət olan komanda tərəfindən verilə bilər. Layihə çərçivəsində startapçılar üçün təlimlər təşkil olunur, investorlarla görüşlər keçirilir, startapçılara komanda formalaşdırmağa köməklik göstərilir. İnternet biznesə başlamaq istəyənlər üçün layihə çərçivəsində keçirilən təlimlərdə uğurlu bizneslə bağlı bilik və təcrübə əldə etmək imkanları yaradılır. Tələbələr portalda "Yeni hesab yarat" bölməsi vasitəsilə burada qeydiyyatdan keçməklə aktiv istifadəçi olub portalın imkanlarından geniş istifadə edə bilərlər.

Portalda layihə çərçivəsində yaradılmış işçi qrup – mentorlar, İT, internet-biznes və sosial media sahəsində, marketinq və maliyyə, layihələrin idarə olunması sahəsində təcrübəli mütəxəssislər startaplara məsləhətlər verilməsi, onların dəyərləndirilməsi, tanıtımının daha uğurla həyata keçirilməsi istiqamətində köməklik göstərir. Bundan əlavə, startapın aid olduğu sahə üzrə hami təşkilatların peşəkar mütəxəssisləri layihənin ərsəyə gəlməsində yaxından iştirak edirlər. Startap layihələri müxtəlif fəaliyyət istiqamətləri üzrə ixtisaslaşan təcrübəli ekspertlər tərəfindən qiymətləndirilir. Ekspertlər layihələrin perspektivliyinə və risklərin dəyərləndirilməsinə üstünlük verirlər. Təqdim olunan startap layihələrinin ideyasının, qısa təsvirinin və digər məlumatların ekspertlər tərəfindən ümumi dəyərləndirilməsi əsasında təklif olunan biznesin nə dərəcədə uğurlu olması müəyyən edilir. Layihəsi olan, ancaq dəyərləndirə bilməyənləri "Startap Naxçıvan" portalından aktiv istifadə etməyə çağırırıq.

***Startap layihəsində internet biznesini qurmaq istəyən hər bir şəxs iştirak edə bilər***

Hüseyn müəllim bildirir ki, startap layihəsində iştirak üçün tələbələrə ixtisas məhdudiyyəti yoxdur. Bu lahiyədə İKT-dən istifadə yolu ilə gəlir əldə etmək, öz internet biznesini qurmaq istəyən hər bir şəxs, tələbə və ya mütəxəssis, hüquqi və ya fiziki şəxs, developerlər, proqramçılar və sair iştirak edə və öz startap ideyalarını onlayn olaraq təqdim etməklə gerçəkləşdirə bilərlər. İnvestor axtarışında olan digərləri də bu portala müraciət edə bilərlər.

***"Startap Naxçıvan" hərəkatının genişləndirilməsi istiqamətində bir sıra tədbirlər reallaşdırılıb***

Hüseyn Əsgərli qeyd edir ki, bu istiqamətdə görülən işlər investisiya mühitinin yaxşılaşdırılmasına, yaradıcı düşüncə və inkişafa xidmət edən ən yaxşı layihələri üzə çıxarmağa, innovativ ideyaların uğurlu biznes subyektinə çevrilməsinə hesablanıb. Bu məqsədlə Rabitə və Yeni Texnologiyalar Nazirliyi aidiyyəti təşkilatların təklifləri əsasında startap layihələrinə nəzarət mexanizmini asanlaşdıran internet portalının layihəsini və təqdim ediləcək digər layihələri qiymətləndirəcək ekspert qrupu yaradıb. Nazirliyin mütəxəssislərindən ibarət mentor qrupu muxtar respublikada 2018-ci ildən etibarən icrasına başlanan "I2B – İdeyadan Biznesə" layihəsi çərçivəsində təşkil edilən startap turunun Naxçıvan mərhələsində iştirak etmək üçün layihələrə mentor dəstəyi göstərib, onlar üçün seminar-treninqlər keçib. Beləliklə də, bu il müvafiq olaraq "Peşəkar", "Cafes Caravan Company", "Pay Port" layihələri qalib seçilib və həmin komandalar avqust ayının sonlarında "İnnocamp" yay düşərgəsində iştirak ediblər. Həmçinin onlar cari ilin dekabr ayında keçiriləcək "Bakutel-2019" 25-ci Yubiley Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar Sərgi və konfransında öz layihələrini yenidən iştirakçılara və eyni zamanda investorlara təqdim etmək şansı qazanıblar.

Nazirliyin fəaliyyət istiqamətlərindən biri də gəncləri innovativ fəaliyyətə cəlb etmək üçün ali və orta ixtisas təhsili müəssisələri digər hami təşkilatlarla birgə təlimlər, müsabiqələr keçirməkdir. Bunun üçün nazirlik tərəfindən növbəti ildə də startapla bağlı seminar-treninqlərin, görüşlərin keçirilməsi nəzərdə tutulur.

Hüseyn Əsgərli həm də "PayPort" layihəsinin mentorudur. O qeyd edir ki, bu layihə gələcəkdə onlayn ödəniş portalı kimi fəaliyyət göstərəcək və



geniş xidmətləri ilə istifadəçilərin rahatlığını təmin edəcək. Layihə Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Məlumat Hesablama Mərkəzi tərəfindən də dəstək görüb. Hazırda layihə üzərində işlər davam etdirilir.

Muxtar respublikamızda uğur qazanan digər layihələr barədə də məlumat vermək istərdim. "Cafes Caravan Company" layihəsinin komanda kapitanı Fərid Seyidov deyir ki, layihəmizlə muxtar respublika turizminin və iqtisadiyyatının inkişafına töhfə verəcəyimizə inanırıq. Yeni startapın əsas mənbəyi yaradıcı ideya olsa da, onun uğuru üçün vacib olan daha bir amil həmin ideyaya bazarda potensial tələbatdır. Bunun üçün bazarın ciddi araşdırılması tələb olunur. Həmçinin startapın uğur qazanmasında ideyaya inam və adekvat komandanın seçilməsi də mühüm rol oynayır.

O qeyd edir ki, biz yaradıcı ideyası olan layihə və uğurlu komanda formalaşdırmışıq. Layihəmiz "I2B-İdeyadan Biznesə" layihəsi çərçivəsində təşkil edilən startap turunun Naxçıvan mərhələsində ikinci yeri tutdu. Bunu başlanğıc



üçün yaxşı hal kimi qiymətləndirmək olar. Dekabr ayında keçiriləcək "Bakutel-2019" telekommunikasiya, innovasiya və yüksək texnologiyalar sərgi və konfransında layihəmizi yenidən təqdim edəcəyik. Orada iştirak edən investorları layihəmizə dəstək olmağa çağırırıq.

"Peşəkar.az" layihəsinin komanda kapitanı Nail Seyidov isə deyir ki, biz hər bir sahə üzrə peşəkarların bir arada toplandığı platforma (sayt, mobil tətbiq) yaratmışıq. Bu innovativ xidmət peşəkarlara öz xidmətlərini nümayiş etdirməyə, xidmət ödənişinin nağd şəkildə aparılması zamanı yaranan çətinlikləri aradan qaldırmağa, isteh-



lakçının almaq istədiyi xidmətə uyğun və alternativli peşəkar seçimini etməyə dəstək olacaq. "I2B-İdeyadan Biznesə" layihəsi çərçivəsində təşkil edilən startap turunun Naxçıvan mərhələsində birinci yeri tutduq. Bakı şəhərində keçirilən final turunda çıxış etdik və layihəmiz bir neçə investorun diqqətini çəkdi. Biz bir komanda olaraq *"Peşəkar – sizi düşünən biri var"* sloqanı ilə insanlara layiqincə xidmət edəcəyimizə inanırıq. Bu layihədən əlavə, komandamızla birgə "Pullu" adlı reklam platformasi da yaratmışıq. Platformanın android versiyası istifadəyə verilib. Fəaliyyətə başladığı qısa müddətdə böyük maraq görən platformada hər bir şəxs həm öz reklamlarını yerləşdirə, həm də həmin reklamları izləyənlər pul qazana bilirlər.

Nail Seyidov bildirir ki, biz gənclər göstərilən qayğıdan səmərəli istifadə edərək, insanların maraqlarını nəzərə alıb, hazırladığımız layihələrlə gələcək inkişafımız üçün çalışırıq.

*Göründüyü kimi, muxtar respublikamızda startap hərəkatına qoşulmaq istəyən gənclərin sayı artır. Gənc nəsil təkcə yeni fikirlərini biznesə çevirməyi yox, həm də insanların nə istədiyini başa düşməyi və buna düzgün yollarla cavab verməyi öyrənirlər. Öyrənmək olan yerdə isə hər zaman inkişaf var. Əzmlə işləmək, inanmaq uğurun yarısıdır.*

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

## Zabit heyəti növbəti kursu uğurla başa vurub



*Əlahiddə Ümumqoşun Orduda növbəti zabit heyətinin təkmilləşdirilməsi kursunun uğurla başa çatması münasibətilə buraxılış mərasimi keçirilib.*

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra mərasimdə çıxış edən polkovnik Mehman Gülməmmədov bildirib ki, kurs zamanı təyin olunmuş tədris proqramına uyğun olaraq nəzəri, praktik və göstərici məşğələlər keçirilib. Məşğələlər zamanı kursa cəlb edilmiş zabitlərin peşəkarlığının artırılması məqsədilə silahlanmaya yeni daxil edilmiş ən müasir silah və hərbi texnika nümunələri real döyüş şəraitində tətbiq edilib.

Məzunlar adından çıxış edən kapitan Yusif Şabanov vurğulayıb ki, kursda qazandıqları yeni taktiki bilikləri, eləcə də idarəçilik və təşkilatçılıq bacarıqlarını xidmət yerlərində uğurla tətbiq edəcəklər.

Mərasimdə Əlahiddə Ümumqoşun Ordu komandanı, general-leytenant Kərəm Mustafayev şəxsi heyəti təbrik edərək bildirib ki, təməli ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş ordu quruculuğu siyasəti bu gün Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun yüksək diqqət və qayğısı sayəsində uzun illər müxtəlif mərhələlərdən keçərək formalaşmış Əlahiddə Ümumqoşun Ordu bu gün yeni-yeni uğur və zəfərlər qazanmaqda davam edir. 2017-ci ildə keçirilmiş möhtəşəm hərbi parad, 2018-ci ildə qazanılmış uğurlu Günnüt zəfəri və bu il Naxçıvanda keçirilmiş "Sarsılmaz qardaşlıq-2019" Azərbaycan-Türkiyə birgə döyüş atışlı taktiki təlimi Əlahiddə Ümumqoşun Ordunun gücünü bir daha bütün dünyaya nümayiş etdirdi.

General-leytenant Kərəm Mustafayev vurğulayıb ki, bütün bunlara hər zaman dövlət qayğısını üzərində hiss edərək və xalq-ordu birliyindən ruhlanaraq ən çətin döyüş tapşırıqlarının öhdəsindən layiqincə gəlməyi bacaran əzmkar şəxsi heyətimizlə nail olmuşuq. İnanırıq ki, bu gün kursu uğurla başa vuraraq yuxarı vəzifələrə təyin olunan zabitlərimizin peşəkarlığı nəticəsində yeni zəfərlərə imza atacağıq.

Sonra məzunlara sertifikat və hədiyyələr təqdim edilib.

Kurs birincisi tərəfindən xatirə lövhəsinə buraxılış emblemi vurulub və xidmətdə fərqlənən bir qrup zabit fəxri fərmanla təltif edilib.

Sonda tribuna önündən təntənəli keçid olub.

**Nəriman NƏCƏFOV**

## Tələbələr istehsalat təcrübəsində oldublar

*Naxçıvan Dövlət Universitetinin Meliorasiya və su təsərrüfatı tikintisi mühəndisliyi ixtisasının 4-cü kurs tələbələri Naxçıvan Muxtar Respublikasının Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsində təcrübə keçirlər.*



Meliorasiya və su təsərrüfatı sahəsində tətbiq edilən yeniliklər, müasir suvarma sistemləri, hidrotexniki qurğular barədə təsəvvürün yaranması məqsədilə tələbələr ayrı-ayrı sahələrdə iş prosesi ilə tanış olublar.

Tələbələr təcrübə zamanı Şahbuz rayonunun Türkeş kəndində tikintisi aparılan qapalı suvarma şəbəkəsinin və Külüs kəndindəki nasos stansiyasının ərazilərində olublar. Məlumat verilib ki, qapalı suvarma şəbəkəsi və nasos stansiyası vasitəsilə Şahbuz rayonunda 700 hektar sahədə torpaqların su təminatı yaxşılaşdırılacaq. Tikinti işləri aparılarkən ərazinin relyefi nəzərə alınıb.

Sonra tələbələrə mütəraqqi suvarma sistemlərinin qurulması, tətbiq edilməsi, nasos stansiyalarının tikintisi, suvarmanın təkmilləşdirilməsi barədə geniş məlumat verilib.

Qeyd edək ki, tələbələrin təcrübə keçmələrində əsas məqsəd onların aldığı nəzəri bilikləri möhkəmləndirmək, sonrakı əmək fəaliyyətlərində istifadəsini təmin etmək, tələbələrlə mütəxəssislər arasında əlaqələri gücləndirməkdir.

İstehsalat təcrübəsi yeddi həftə müddətində davam edəcək.

***Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin mətbuat xidməti***

*Naxçıvan Muxtar Respublikası Ali Məclisində payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar sentyabr ayının 7-də keçirilmiş müşavirədə Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinə verilmiş tapşırıqlar standartlara uyğun olmayan və sənaye üsulu ilə hazırlanmayan qızdırıcı elektrik və qaz cihazlarının muxtar respublikaya idxalına, satışına və istismarına yol verilməməsindən, eləcə də bununla əlaqədar istehlakçıların və sahibkarların əvvəlcədən məlumatlandırılmasından ibarətdir.*

olan qaz sobalarında bir çox hallarda müəyyən olunur ki, maya dəyərinin aşağı salınması və ya hər hansısa başqa bir səbəbdən onların üzərində bu qurğular olmur və ya sonradan açılıb çıxarılır.

Cari ilin yanvar-oktyabr ayları ərzində 10 qaz sobası, 88 qaz piləsi, 17 qazla işləyən su qızdırıcısı standartlara uyğun olmadığından gömrük orqanları tərəfindən saxlanılıb. 2907 qaz sobası, 2228 qaz piləsi, 4267 qazla işləyən su qızdırıcısı isə standartlara uyğun olduğundan buraxılışı təmin edilib.

## Standartlara uyğun olmayan elektrik və qaz cihazlarının idxalına icazə verilmir

Nəzərə almaq lazımdır ki, keyfiyyətin beynəlxalq qaydalar əsasında təmin edilməsi, ilk növbədə, məhsulların sertifikatlaşdırılmasını tələb edir. "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən vətəndaşların həyatı, sağlamlığı və əmlakı, ətraf mühitin mühafizəsi üçün təhlükəsizlik tələblərinin müəyyən edildiyi mallar məcburi sertifikasiyadan keçməlidir. Əks təqdirdə həmin malları ölkə ərazisində satmaq və istifadə etmək qadağandır. Müvafiq səlahiyyətli orqan, yəni Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi tərəfindən verilmiş və ya tanınmış uyğunluq sertifikatı belə malların ölkə ərazisinə idxal edilməsinə gömrük orqanları tərəfindən icazə verilməsi üçün əsasdır.

Standartlara uyğunluğu müvafiq dövlət orqanı tərəfindən təsdiqlənməmiş qızdırıcı elektrik və qaz cihazlarının idxalına icazə verilməməsi məhz istehlakçıların hüquqlarının müdafiəsi üzrə dövlət siyasətinin tərkib hissəsidir. Çünki qanunvericilik uyğunluq sertifikatı təqdim olunmadan təhlükəsizliyi təmin edilməli olan malların gömrük sərhəd-buraxılış məntəqələrindən keçirilməsinə yol vermir. Bununla bağlı sərhəd-keçid məntəqələrində vətəndaşlara yazılı, şifahi və elektron qaydada xəbərdarlıqlar olunur, xaricdən qaz sobası gətirmək istəyən hüquqi və fiziki şəxslərə qanunvericiliyin tələbləri izah edilir. Uyğunluq sertifikatı olmadan idxal edilən qızdırıcı elektrik və qaz cihazları sərhəd-keçid məntəqələrində saxlanılır. Ayrı-ayrı vətəndaşlar tərəfindən şəxsi istifadə üçün gətirilən qaz cihazlarının, o cümlədən sobaların təhlükəsizlik sistemi yoxlanılır və müsbət rəy alındıqdan sonra buraxılışına icazə verilir. İstifadə olunmuş, ikinci əl qaz cihazları isə, ümumiyyətlə, gömrük sərhədindən buraxılmır. Bu gömrük siyasəti təhlükəsizliyin təmin olunmasına, vətəndaşlara dəyə biləcək maddi və mənəvi ziyanın qarşısının alınmasına xidmət edir.

Muxtar respublikada məskunlaşma səviyyəsinin ilbəil artması, əhalinin böyük əksəriyyətinin kəndlərdə yaşaması fərdi yaşayış evlərində qazla işləyən cihazlara tələbatı artırmaqla yanaşı, onlardan istifadə zamanı təhlükəsizliyin təmin olunmasını da aktual edir. Çünki mavi yanacaq nə qədər sərfəli və rahat olsa da, təhlükəsizlik təmin olunmadıqda bədbəxt hadisələr qaçılmaz olur.

Yeri gəlmişkən, qeyd edək ki, standarta uyğun sobalarda dəm qazının miqdarı həyat üçün təhlükəli olanda qazın sobaya girişini avtomatik olaraq dayandıran xüsusi qurğu olur. Üstəlik, hər hansısa bir səbəbdən qaz nəqli dayandıqda ehtimal olunan təhlükələrin qarşısının alınması üçün sobalar avtomatik qaz requlyatoru ilə təchiz edilir. Sınaq yoxlamalarının nəticələri göstərir ki, ayrı-ayrı vətəndaşlar tərəfindən xaricdəki mağazalardan alınıb gətirilən sobaların heç də hamısı standartlara cavab vermir. Xarici uyğunluq sertifikatı

Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2019-2020-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilmiş müşavirədə verilmiş tapşırıqların icrasıyla əlaqədar xaricdən gətirilən, o cümlədən satışa çıxarılan qızdırıcı elektrik və qaz cihazlarının milli sertifikatlaşmaya uyğunluğuna nəzarətin həyata keçirilməsi məqsədilə Dövlət Gömrük Komitəsi, Fövqəladə Hallar Nazirliyi və Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi tərəfindən daxili bazarda birgə reydlər də təşkil olunur. Məqsəd standartlara uyğun olmayan və sənaye üsulu ilə hazırlanmayan elektrik və qaz cihazlarının istismarına yol verilməməsindən və satış dövriyyəsindən çıxarılmasının təmin edilməsindən, o cümlədən sahibkarlıq subyektlərinin hüquqi cəhətdən maarifləndirilməsindən ibarətdir.

Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsi bir daha diqqətə çatdırır ki, təhlükəsizliyin təmin edilməsi və istehlakçıların hüquqlarının müdafiəsi üzrə dövlət siyasətinin həyata keçirilməsi məqsədilə standartlara uyğun olmayan elektrik və qaz cihazları muxtar respublikaya buraxılmır.

**Rahil TAHİRLİ**

## Kənd təsərrüfatı sahəsində tədbirlər davam etdirilir

*Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi oktyabr ayında fəaliyyətini illik iş planına uyğun qurmuş, dövlət proqramlarının icrası diqqətdə saxlanılmışdır. Payızlıq taxıl əkinlərinin optimal müddətə başa çatdırılması və şırım üsulu ilə əkin aparılmasının üstünlüklərinin əhəmiyyəti mövzusunda maarifləndirici tədbirlər tarla-seminar müşavirələri keçirilmiş, ailə təsərrüfatlarının ixtisaslaşması, orta və kiçik sahibkarlıq subyektlərinə çevrilməsi istiqamətində işlər davam etdirilmişdir.*



Ötən ay torpaq mülkiyyətçilərinin müraciəti əsasında taxıl əkinlərinə hazırlığın aparılması, toxum və sələflərin müəyyənləşdirilməsi, toxumun dərmanlanması, səpin normaları və müddətləri, meyvə bağlarında və üzüm sahələrində payız becərmələrinə dair məsləhətlər verilmişdir. "Araz" Elm-İstehsalat Birliyinə torpaq mülkiyyətçilərinin təqdim etdikləri torpaq nümunələri birliyin laboratoriyasında analiz olunmuş, torpaqdan istifadə qaydaları haqqında məlumat verilmişdir.

"2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı"nın icrası ilə əlaqədar tədbirlər görülmüş, iri arıçılıq təsərrüfatları sahibkarlarının iştirakı ilə müşavirələr keçirilmiş, heyvandarlıq təsərrüfatlarında mal-qaranın cins tərkibinin yaxşılaşdırılması istiqamətində süni mayalanmanın əhəmiyyəti, qışlamaya hazırlıq və heyvanlara zoobaytar qaydalara uyğun qulluq edilməsi ilə bağlı görüşlər təşkil olunmuşdur.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

## "Büdcəmizi anlayaq" layihəsi çərçivəsində növbəti təlim keçirilib



*Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzi muxtar respublikada dayanıqlı maliyyə mühitini dəstəkləyərək ehtiyac yaranan sahələrdə maarifləndirmə və məlumatlandırma işini həyata keçirmək məqsədilə "Büdcəmizi anlayaq" layihəsini davam etdirir.*

Təhsil Nazirliyinin və Maliyyə Tədris Mərkəzinin birgə təşkilatçılığı ilə "Büdcəmizi anlayaq" layihəsi çərçivəsində növbəti təlim Naxçıvan şəhərindəki 2 nömrəli tam orta məktəbdə keçirilib. 50-dən çox məktəblinin iştirak etdiyi təlimdə mərkəzin direktoru Sevinc Cabbarova məktəbli büdcəsinin səmərəli istifadəsi, qənaət, maliyyə məqsədlərinin düzgün qoyulması barədə məlumat verib.

Növbəti mərhələdə isə həmin nazirliyin Büdcə şöbəsinin sektor müdiri Səkinə Qəhrəmanovanın slaydlar vasitəsilə "Büdcəmizi anlayaq" mövzusunda çıxışı dinlənilib. Təlimin interaktiv hissəsində Maliyyə Tədris Mərkəzinin baş mütəxəssisi Zəhra İsmayılova tərəfindən interaktiv oyun vasitəsilə şərti ailənin gəlir və xərclərinin müqayisəli təhlili aparılıb.

Sonra məktəblilərin təqdimatı dinlənilib və səmərəli büdcə planlaşdırılması qaydaları ətrafında müzakirələr aparılıb. Bu mərhələdə 3 komanda iştirak edib. İnteraktiv mərhələdən sonra fəal iştirak edən komandalara Maliyyə Tədris Mərkəzinin sertifikatları təqdim olunub.

***Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikası üzrə 25 noyabr 2019-cu il tarixə taxıl səpininin gedişinə dair operativ məlumat

hektarla

| S/№ | Şəhər və rayonlar | Səpilən sahə | o cümlədən | |
|---|---|---|---|---|
| | | | buğda | arpa |
| 1. | Şərur rayonu | 2461,9 | 2250,0 | 211,9 |
| 2. | Babək rayonu | 9407,0 | 6884,0 | 2523,0 |
| 3. | Ordubad rayonu | 897,0 | 370,0 | 527,0 |
| 4. | Culfa rayonu | 5638,0 | 4850,0 | 788,0 |
| 5. | Kəngərli rayonu | 4635,0 | 2785,0 | 1850,0 |
| 6. | Şahbuz rayonu | 1017,0 | 1010,0 | 7,0 |
| 7. | Sədərək rayonu | 1565,0 | 981,0 | 584,0 |
| 8. | Naxçıvan şəhəri | 745,0 | 654,0 | 91,0 |
| | **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | **26365,9** | **19784,0** | **6581,9** |

## Futbol çempionatında növbəti oyunlar olub

*Futbol üzrə Naxçıvan Muxtar Respublika Çempionatında (Region Liqasının Naxçıvan Muxtar Respublika zonası) növbəti turun oyunları keçirilib.*



Azərbaycan Futbol Federasiyaları Assosiasiyası (AFFA), Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Naxçıvan Futbol Federasiyasının təşkilatçılığı ilə keçirilən çempionatın üçüncü turuna Şərur Olimpiya İdman Kompleksinin stadionunda start verilib.

Qərb zonasının ilk oyununda Naxçıvan Dövlət Universitetinin komandası "Sədərək" komandasını sınağa çəkib və meydanı 6:1 hesablı qələbə ilə tərk edib. Şərurun "Arpaçay" komandası isə ilk iki turda qələbə qazanan Kəngərlinin eyniadlı komandasını böyükhesablı məğlubiyyətə uğradıb – 7:1.

Mərkəzi zonada isə "Araz-Naxçıvan" növbəti böyükhesablı qələbəsini bayram edib. "Qırmızı-ağlar" bu dəfə Culfanın "Əlincə" komandasını 12 dəfə mərkəzə "dəvət" edib – 12:0. İlk iki turu məğlubiyyətlə başa vuran "Babək" komandası isə bu tur qələbəyə sevinib. Babəklilər Şahbuzun "Batabat" komandasını 4:0 hesabı ilə məğlub etməyi bacarıblar.

Qeyd edək ki, çempionat Mərkəz və Qərb zonaları üzrə keçirilir. Müvafiq olaraq 3 və 4 dövrədən ibarət zona yarışları sonunda turnir cədvəlində 1 və 2-ci yerləri tutan komandalar pley-off mərhələsinə vəsiqə qazanacaqlar. Burada qalib olan komanda isə muxtar respublikanı Azərbaycan Region Liqasında təmsil edəcək.

## Futzal Liqasında "Panter" vahid liderliyi ələ alıb



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası və Naxçıvan Futbol Federasiyasının təşkilatçılığı ilə muxtar respublikada ilk dəfə olaraq dövlət və özəl təşkilatlar arasında futzal liqasının 7-ci turunun oyunları keçirilib.

Bu turda aşağıdakı nəticələr qeydə alınıb:

*"Antiinhisar və İBNDA" - "FHN-Xilasedici" 1:4*

*"Diplomatik" – "DSMF" 2:7*

*"Penitensiar Xidmət" – "Badamlı" 0:4*

*ƏƏSMN - "Türkiyə Səfirliyi" 8:1*

*"Nəqşicahan Holdinq" – "Hava Limanı" 11:3*

*"Ədliyyə" – "Prestij" 2:6*

*"Ağbulaq" – "Günnüt" 3:2*

*"Panter" – "Birlik" 11:5*

*"Cahan Holdinq" – "Qayğı" 6:0*

*"Zirvə" – "Lokomotiv" 1:1*

*"Nuhçıxan" – "Mustanq" 5:8*

Hazırda turnir cədvəlinə 7 görüşdə maksimum xal toplayan "Panter" başçılıq edir. "Badamlı" və "Penitensiar Xidmət" komandalarının aktivində 18 xal var.

## Karateçilərimiz üçün kəmər imtahanı

*Bakı şəhərində Milli Karate Federasiyasının təşkilatçılığı ilə 27-ci respublika çempionatı keçirilib.*




Çempionatda Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının yetirməsi də iştirak edib. Belə ki, 18-21 yaşlı idmançılar arasında +84 kiloqram çəki dərəcəsində tatamiyə çıxan Aslan İsmayılov gümüş medal qazanıb. Qalib idmançımız sonda təşkilatçılar tərəfindən mükafatlandırılıb.

Həmçinin Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının təşkilatçılığı ilə kəmər imtahanları keçirilib. "Naxçıvan" Universitetinin idman zalında keçirilən imtahanda 50 idmançı iştirak edib və onlar müxtəlif kəmər dərəcələrinə layiq görülüblər.

**Ceyhun MƏMMƏDOV**

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 806